

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 noyabr 2025-ci il №83 (2992) https://mod.gov.az Qiymәti 30 qәpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün noyabrın 15-də Özbəkistana səfər edib.*

Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Noyabrın 15-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib.



Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulanıb.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakının önəminə toxunulub.

Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Milli Dirçəliş Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 17 Noyabr - Milli Dirçəliş Günü ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.

## “Bir millət, iki dövlət” kəlamı işığında Azərbaycanla birliyimiz sarsılmazdır

Türkiyənin Milli Müdafiə Nazirliyi Milli Dirçəliş Günü münasibətilə Azərbaycanı təbrik edib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Milli Müdafiə Nazirliyinin sosial media paylaşımında deyilir: "Otuz yeddi il əvvəl milli dirçəliş ruhu ilə dolu, müstəqilliyə doğru irəliləyən və Qarabağda Qələbə çalan Azərbaycandan olan qardaşlarımızı təbrik edirik. "Bir millət, iki dövlət" kəlamı işığında birliyimizin sarsılmazlığını bir daha bəyan edirik".

## Rəcəb Tayyib Ərdoğan: Türkiyə Azərbaycanın yanında olmağa davam edəcək

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanı dəstəkləməyə kursunun dəyişməz olaraq qalacağını bildirib.*

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin Ankarada keçirilən iclasının yekunlarına dair keçirilən brifinqdə çıxış edərək o, Vətən müharibəsində Zəfərin beşinci ildönümünə həsr olunmuş hərbi paradda iştirakının əhəmiyyətini vurğulayıb.

"Biz Bakıda Azadlıq meydanında Zəfər Gününü qeyd edərək, Azərbaycandan olan qardaşlarımızın yanında idik. Türkiyə həm kədərli, həm də sevincli anlarda, "Bir millət, iki dövlət" kəlamı kontekstində hər cür Azərbaycanın yanında olmağa davam edəcək", - deyə Prezident əmin edib.

Dövlət başçısı, həmçinin Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus C-130 hərbi nəqliyyat təyyarəsinin Gürcüstan səmasında qəzaya uğraması mövzusuna da toxunub.

Türkiyə lideri dünyanın hər yerindən Ankaraya başsağlığı məktublarının gəldiyini qeyd edib. "Türkiyənin ağrısını bölüşən bütün dost və qardaş ölkələrə minnətdaram", - deyə o, bildirib.

Onun sözlərinə görə, Gürcüstan və Azərbaycan hakimiyyəti faciənin ilk dəqiqələrindən etibarən axtarış-xilasetmə qruplarının daşınması, təyyarənin parçalarının yerinin müəyyən edilməsi və qəza bölgəsində təhlükəsizliyin təmin edilməsi də daxil olmaqla, Türkiyə ilə sıx əməkdaşlıq edərək bütün imkanlarını birləşdirib: "20 türk hərbçisinin həyatına son qoyan qəzanın mənzərəsi türk ekspertlərinin işi və uçuş məlumatlarını qeyd edən cihazın məzmununun təhlilindən sonra daha aydın olacaq".

## İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatları məhv ediləcək




İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla, noyabrın 17-21-də Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırır.

## Ötən 15 gündə 392 mina və 3 min 207 partlamamış hərbi sursat zərərsizləşdirilib



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən **noyabrın 1-dən 16-dək** icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən yarım ayda Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 265, tank əleyhinə 127 mina və 3 min 207 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 2 894,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan səfəri

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib. Səmərqənd şəhərinin qədim memar-



lıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan çox ərazini əhatə edir. Binada 65 metr hündürlüyündə günbəz inşa olunub. Mərkəzə tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri və digər şöbələr daxildir.

Buradakı sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir.

Mərkəzin binasında, həmçinin 100 min əlyazma və bir milyondan çox kitab daxil olmaqla, nəhəng kitabxana və İslam Sivilizasiyası Mərkəzinin elmi şöbəsi, beynəlxalq təşkilatların ofisləri yerləşir. Mərkəzin muzey ekspozisiyası "İslamdan əvvəl sivilizasiyalar", "Birinci İntibah dövrü",







"İkinci İntibah dövrü", "XX əsrdə Özbəkistan", "Yeni Özbəkistan - Üçüncü İntibahın əsası" və "Müqəddəs Quran" adlı zallardan ibarətdir.

Ekspozisiyanın mərkəzində yerləşən "Müqəddəs Quran" zalında müsəlman dünyasının mənəvi incisi - "Osman Quranı" saxlanılır. Zalda Samanilər, Qaraxanlılar, Xarəzmşahlar, Teymurilər və digər sülalələr dövründə yazılmış "Quran"ın əlyazma nüsxələri, həmçinin onların özbək dilinə tərcümələri təqdim olunur. Mərkəzdə dini-maarifləndirici və innovativ media layihələri reallaşdırılıb.

Holoqrafiya, qurğular və proyeksiya texnologiyalarının köməyi ilə "Zaman divarı" nəhəng multimedia panelində müxtəlif dövrlərin ən mühüm tarixi mərhələləri, böyük kəşflər və görkəmli şəxsiyyətlər barədə məlumat verilir. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurub.

* * *

Noyabrın 15-də Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, Azərbaycandan bu mükafata Xalq artisti Alim Qasımov layiq görülüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Konqres Mərkəzinə gəlib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısını qarşılayıb.

* * *

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqres Mərkəzinə gəlib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısını qarşılayıb.

Tədbirin iştirakçıları birgə foto çəkdiriblər.

Görüşdə çıxış edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq deyib: "Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm".

Şavkat Mirziyoyev bildirib ki, həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. "Mərkəzi Asiya +" formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq", - deyə Özbəkistan Prezidenti vurğulayıb.

"Bu gün Azərbaycanın tamhüquqlu iştirakçı qismində bizim formata qoşulmasına dair tarixi qərar qəbul etdik". Bu fikri isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev söyləyib. O, Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd edib: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib".



"Bu gün regionun yeni nəqliyyat arteriyasının meydana çıxmasının şahidi oluruq", - deyən Sadır Japarov əlavə edib ki, strateji cəhətdən mühüm Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi logistikanı birləşdirməklə yanaşı, həm də formatı genişləndirəcək, ölkələrimizə Asiya və Avropanın çox böyük bazarlarına ən qısa yolu açacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin tikintisi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi və strateji davamı kimi görünür.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək deyib: "Hörmətli İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu, balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir".

Tədbirdə çıxış edən Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev deyib: "İndi isə icazənizlə, söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir. Buyurun, İlham Heydər oğlu".

Prezident İlham Əliyev tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Şavkat Miromonoviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünə dəvətə görə dərin minnətdarlığımı bildirirəm. Özbəkistan tərəfinə ənənəvi qonaqpərvərliyinə görə təşəkkür edirəm.

Özbəkistan qardaşım Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə inkişaf və quruculuq yolunda inamla irəliləyir. Onun güclü beynəlxalq nüfuzu, səmərəli iqtisadi islahatları, sənaye, nəqliyyat və kənd təsərrüfatı sahələrində həyata keçirdiyi irimiqyaslı layihələr Özbəkistanı regionda lider mövqeyə yüksəldib. Prezidentin gündəlik qayğısı sayəsində Özbəkistan dünyanın aparıcı idman dövlətləri sırasında yer alıb. Bu yaxınlarda keçirilən Yay Olimpiya Oyunları bunu əyani şəkildə nümayiş etdirdi. Şavkat Miromonoviç müdrik dövlət xadimi olmaqla yanaşı, həm də Özbəkistan-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfə vermiş insandır. O, konkret fəaliyyətinə, xalqımıza xoş münasibətinə görə Azərbaycanda sevilir və hörmətlə qarşılanır. Uzaqgörən siyasi xadim Şavkat Miromonoviç Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında daha sıx əməkdaşlığa ehtiyac olduğunu aydın görür. Şavkat Miromonoviç, hər şeyə görə Sizə bir daha sağ olun deyirəm.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan səfəri



(Əvvəli 2-ci səhifədə)

Dünən biz İslam Sivilizasiyası Mərkəzini ziyarət etdik. Özbəkistan Prezidentinin təşəbbüsü ilə yaradılan bu Mərkəz Özbəkistan Prezidentinin ölkənin zəngin mədəni irsinə sadiqliyinin daha bir göstəricisidir. Bəzi ölkələrdə dinimizə qarşı hücumların artdığı bir şəraitdə islamofobiya sistemli xarakter alır. İslam Sivilizasiyası Mərkəzinin açılması bütün dünyaya göstərir ki, İslam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İslam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün İslam dünyası üçün qürur mənbəyinə çevriləcək.

Hörmətli həmkarlar, Azərbaycan artıq üçüncü dəfədir ki, Mərkəzi Asiya sammitlərində iştirak edir. 2023-cü ildə Tacikistan Prezidenti hörmətli Emoməli Şaripoviç Rəhmonun, 2024-cü ildə isə Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Kemeleviç Tokayevin dəvəti ilə sammitlərin işində iştirak etdim.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik.

Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər.

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir.

Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur.

Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk.

Xüsusilə qeyd edək ki, artıq Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda isə Manas məktəbi fəaliyyət göstərir. Bu, özbək, qazax və qırğız qardaşlarımızın hədiyyələridir.

Bu ilin oktyabrında Füzulidə Türkmənistanın qardaşlıq dəstəyinin rəmzinə çevriləcək məscidin təməli qoyulub. Bütün bunlar qardaşlığımızın və həmrəyliyimizin sübutu kimi qədirbilən Azərbaycan xalqının yaddaşında qalacaqdır.

Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

Orta Dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır.




Son üç ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb.

Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmişdir.

Əminəm ki, Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir.

Rəqəmsal rabitə sahəsində əməkdaşlığımız böyük potensiala malikdir. "Rəqəmsal İpək Yolu" layihəsinə Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi planları daxildir.

Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün böyük perspektivlər açır.

Sonda Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması ilə bağlı qərara görə hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir. Eyni zamanda, bizim formatımızda sədrliyi qəbul etdiyinə görə qardaş Türkmənistanı təbrik etmək istəyirəm.

Diqqətinizə görə sağ olun.

* * *

Qardaş Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qatılması münasibətilə dövlətimizin başçısını bir daha təbrik edən Prezident Şavkat Mirziyoyev bildirib: "Bu, həqiqətən də, bizim üçün böyük tarixi hadisədir. Özbək xalqı və Özbəkistanda aparılan islahatlar barədə dediyiniz sözlərə görə bir daha Sizə təşəkkür edirik. Çox sağ olun ki, Siz İslam sivilizasiyası barədə söz açdınız. Həqiqətən də, Siz dediyiniz kimi, bu, bizim daha da təşviq etməli olduğumuz amildir. Bu Mərkəz bizim ümumi nailiyyətimizdir. Düşünürəm ki, bu, gələcəkdə bizim müvafiq istiqamətdə birgə tədbirlər görməyimizə kömək olacaq. Bir daha Sizə təşəkkür edirəm. Dolğun çıxış üçün və bizim ümumi əməkdaşlığımızın genişlənməsi ilə bağlı təşəbbüslərinizə görə Sizə minnətdarlığımı bildirirəm".

* * *

Daha sonra BMT-nin Baş katibi Antonio Quterreşin görüş iştirakçılarına məktubu oxunub.

Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında qəbul edilən Qərar və digər sənədlər imzalanıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri noyabrın 16-da başa çatıb.

Daşkənd Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Özbəkistan Prezidenti Şavkat Mirziyoyev yola salıb.

**AZƏRTAC-ın materialları əsasında**

## "Qardaş Azərbaycanın iştirakı Məşvərət Görüşləri formatına güclü təkan verəcək"

Noyabrın 16-da Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünün ən vacib yeniliyi Azərbaycan Respublikasının Mərkəzi Asiya liderlərinin məşvərət formatına tamhüquqlu iştirakçı kimi qəbul edilməsidir. Bu, təkcə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlıq çərçivəsini genişləndirməyəcək, həm də Cənubi Qafqazla yeni geosiyasi və iqtisadi əlaqələr üçün möhkəm təməl yaradacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Özbəkistan Ali Məclisinin deputatı Gülnorahon Abduvahidovanın rəsmi "UzA" informasiya agentliyinin saytında dərc edilən məqaləsində yer alıb.

Özbəkistan parlamentinin üzvü qeyd edib ki, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi, habelə Trans-Əfqanıstan və Trans-Xəzər dəhlizlərinin inkişafı layihələri regionun coğrafi üstünlüyünü iqtisadi faydaya çevirəcək. Bu cür layihələr təkcə ölkələr arasında nəqliyyat əlaqəsini gücləndirməyəcək, həm də Xəzərdən Avropaya geniş logistika məkanını birləşdirəcək. Buna görə də Prezident Şavkat Mirziyoyev Azərbaycanın iştirakı ilə bağlı qərarı Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü körpü qurulması kimi xarakterizə edib. Bu addım, şübhəsiz ki, iki region arasında logistika, enerji əməkdaşlığı, ticarət və investisiya əlaqələrini yeni səviyyəyə qaldıracaq.

Gülnorahon Abduvahidova əlavə edib: "Bu dəyişiklik təkcə dövlətlər arasında strateji tərəfdaşlığı deyil, həm də regionun siyasi çəkisini əhəmiyyətli dərəcədə gücləndirəcək. Bu gün Mərkəzi Asiyada həmrəyliyin güclənməsi beynəlxalq arenada vahid mövqeyin formalaşmasına töhfə verir. Bundan əlavə, Özbəkistanın dövlət başçısının qeyd etdiyi kimi, Məşvərət Görüşləri haqqında Əsasnamənin qəbul edilməsi, rotasiya əsasında fəaliyyət göstərən Katibliyin yaradılması və milli koordinatorların Prezidentin xüsusi nümayəndələri səviyyəsinə qaldırılması bu formatın davamlı və sistemli əməkdaşlıq platformasına çevrilməsinə xidmət edəcək. Eyni zamanda, Ağsaqqallar Şurasının yaradılması təşəbbüsü də regionumuzun tarixi və mənəvi dəyərlərinə uyğundur".

Məşvərət Görüşündə müzakirə olunan məsələlərin iqtisadi seqmentinə toxunan özbək deputat vurğulayıb: "Özbəkistan Prezidentinin 2035-ci ilə qədər Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Regional Proqram hazırlamaq təklifi qarşılıqlı ticarət həcminin azı ikiqat artırılması, inzibati maneələrin azaldılması, azad iqtisadi zonalardan birgə istifadə və elektron ticarətin inkişafı kimi sahələri əhatə edir. Həqiqətən, bugünkü rəqəmsal iqtisadiyyat kontekstində Mərkəzi Asiya ölkələrinin elektron ticarət platformalarını birləşdirmək təşəbbüsü böyük potensiala malikdir".

Dövlət başçılarının regional təhlükəsizlik məsələləri ilə bağlı müzakirələrinin yekununu şərh edən G.Abduvahidova qeyd edib: "Qəbul edilmiş Regional Təhlükəsizlik Konsepsiyası və Risklər və Təhdidlər Kataloqu qarşıdakı illər üçün vahid təhlükəsizlik siyasətinin hazırlanmasının əsasını təşkil edəcək.

Qeyd etmək lazımdır ki, qlobal miqyasda davam edən hazırkı mürəkkəb geosiyasi şəraitdə region ölkələri arasında həmrəylik hər zaman olduğundan daha vacibdir. Regional liderlərin görüşləri, həmçinin irəli sürülən təşəbbüslər və imzalanan sənədlər Mərkəzi Asiyanın növbəti 10-20 il ərzində inkişafına aydın konseptual yanaşma təqdim edib. Ən əsası, bu təşəbbüslər həm ölkəmiz, həm də bütün region üçün böyük strateji əhəmiyyətə malikdir. Bu gün gücümüz birlikdə, tərəqqi yolumuz əməkdaşlıqda, gələcəyimiz isə strateji həmrəylikdədir. Bu mənada, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü yeni, həlledici bir mərhələnin başlanğıcını qoyub".

# Milli Müdafiə Universitetinin nümayəndə heyəti İtaliyada səfərdədir



*İtaliyada səfərdə olan Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov və onun rəhbərlik etdiyi nümayəndə heyəti Müdafiə üzrə Ali Tədqiqatlar Mərkəzini ziyarət ediblər.*

Milli Müdafiə Universiteti xəbər verir ki, əvvəlcə mərkəzin direktoru general-polkovnik Stefano Mannino Azərbaycan nümayəndə heyətini salamlayaraq onları ölkəsində qəbul etməkdən böyük məmnunluq duyduğunu bildirib. O, iki ölkə arasında hərbi təhsil sahəsində formalaşmış əməkdaşlığın etibarlı tərəfdaşlıq və qarşılıqlı etimada əsaslandığını xüsusi olaraq diqqətə çatdırıb.

General-mayor Gündüz Əbdülov qonaqpərvər münasibətə görə təşəkkür edərək, aparılan görüşlərin və müzakirələrin hər iki ölkənin hərbi təhsil sahəsində formalaşmış əməkdaşlığı üçün yeni imkanlar yaradacağını vurğulayıb. O, əməkdaşlıq istiqamətində atılan addımların təcrübə mübadiləsinə töhfə verəcəyini və gələcək birgə fəaliyyət üçün əhəmiyyət daşıdığını qeyd edib.

Daha sonra Azərbaycan nümayəndə heyətinə İtaliyanın Müdafiə üzrə Ali Tədqiqatlar Mərkəzinin yaranma tarixi, tədris modeli, həmçinin qurumun qarşısında duran strateji hədəflər və əsas fəaliyyət istiqamətləri barədə geniş təqdimat keçirilib. Heyətin üzvlərini maraqlandıran məqamlara dair suallar ətraflı şəkildə cavablandırılıb.

Görüşün sonunda general-mayor Gündüz Əbdülov xatirə kitabına öz səmimi fikirlərini qeyd edib.

* * *

Azərbaycan Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülovun rəhbərlik etdiyi nümayəndə heyəti Roma şəhərində yerləşən NATO-nun Müdafiə Kollecini ziyarət edib.

Nümayəndə heyəti Kollecin komandanı general-polkovnik Maks Nielsen və dekanı Suzanne Nielsen ilə görüşüb.

Görüşdə tərəflər arasında səmərəli fikir mübadiləsi aparılaraq, kollecin əsas vəzifəsi və rolu, bununla yanaşı tərəfdaşlarla mövcud əməkdaşlığı barədə ətraflı məlumat verilib. Görüş zamanı təhsil və əməkdaşlığın qlobal təhlükəsizlik üçün əhəmiyyəti xüsusi vurğulanıb.



Görüş zamanı general-mayor Gündüz Əbdülov Azərbaycanın NATO-nun etibarlı və fəal tərəfdaşı olaraq qlobal sülh və təhlükəsizliyə verdiyi töhfələri qeyd edib. Universitetin rektoru vurğulayıb ki, hərbi təhsil sahəsində qurulan əməkdaşlıq qarşılıqlı uyarlılığın artırılmasına, institusional potensialın möhkəmləndirilməsinə və müasir tələblərə cavab verən hərbi liderliyin formalaşdırılmasına mühüm töhfə verir.

Daha sonra nümayəndə heyətinə Kollecin dekanı S.Nielsen tərəfindən qurumun əsas fəaliyyətləri barədə geniş təqdimat keçirilib. Həmçinin hərbi təhsil sahəsində əməkdaşlıq imkanları müzakirə olunub, tərəfləri maraqlandıran suallar cavablandırılıb.

Sonda Milli Müdafiə Universitetinin nümayəndə heyətinə NATO Müdafiə Kollecinin inzibati binası, infrastruktur imkanları və tədris prosesi ilə yaxından tanışlıq həyata keçirilib.







# Milli Dirçəliş Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

Cari ilin tədbirlər planına uyğun olaraq, 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Noyabr - Milli Dirçəliş Gününün xalqımızın azadlıq mübarizəsindəki əsas mərhələlərdən olması, ölkəmizin müstəqilliyinin bərpa edilməsindəki tarixi rolu barədə geniş məlumat verilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən mü-



Çıxış edənlər 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə keçirdiyi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunmasının milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan yolumuzun başlanğıcı olmasından danışıblar. Həmçinin 17

haribəsində torpaqlarımızı işğaldan azad etməsi nəticəsində bu gün 17 Noyabr - Milli Dirçəliş Gününün Vətənimizin hər yerində xalqımız tərəfindən bayram edilməsi böyük qürur və iftixar hissi ilə qeyd olunub.

Silsilə tədbirlər çərçivəsində təqdim edilən musiqi nömrələri, mədəni-kütləvi və digər tədbirlər şəxsi heyət tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində "Birliyimiz və iradəmiz hər zaman bayrağımızı yüksəltmiş, xalqımızı dirçəltmişdir!" adlı elmi seminar keçirildi.

Seminarda açılış nitqi söyləyən muzeyin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov çıxışına Ulu Öndər Heydər Əliyevin kəlamı ilə başladı: "Milli Dirçəliş Gününün bayram kimi qeyd edilməsi milli həmrəyliyin, demokratiya və suverenliyimizin qorunması uğrunda mübarizənin təntənəsinə çevrilir". Bəli, xalqımızın milli oyanışının, istiqlaliyyətinin, azadlığı uğrunda apardığı qətiyyətli mübarizəsinin təntənəsinə çevrilən Milli Dirçəliş Gününün dəyəri illər keçdikcə daha da artır. Bu bayram azərbaycançılıq məfkurəsinin inkişafında Ulu Öndərin ideyalarının möhkəmlənməsini təcəssüm etdirir. O ağır, çətin günlərdə xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev dövlətimizin qanla qazanılmış azadlığını, istiqlaliyyətini, müstəqilliyini qorudu, əbədi və dönməz etdi, bu yolda aparılan mübarizələrin önünə keçdi. Qalibiyyət bayrağını qurucusu olduğu müasir, müstəqil Azərbaycanın daima başı üzərində dalğalandırdı. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev adını dövlətçilik tariximizə qalib Rəhbər, Müzəffər Ali Baş Komandan kimi yazdı. Ulu Öndərin təlatümlərdən, fırtınalardan çıxardığı müasir, müstəqil Azərbaycanı dünyaya qalib ölkə kimi tanıtdı, onun nüfuzunu beynəlxalq səviyyədə daha da artırdı. Xalqımız 17 Noyabr - Milli Dirçəliş Gününü hər il böyük qürur, fəxr hissi ilə qeyd edir. Qoy, həmişə Azərbaycanımızın azadlığı, istiqlaliyyəti əbədi, dönməz olsun!"

Seminar Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun professoru Hacı Həsənovun "Milli-azadlıq hərəkatının növbəti yüksəlişi" və muzeyin tədqiqatçı-baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılovun "Milli dirçəlişə aparan tarixi hadisələr" adlı məruzələri ilə davam etdi.

Məruzələrdə ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq, Azərbaycanda baş verən milli-azadlıq hərəkatının, xalqımızın istiqlal mübarizəsinin başlanması tarixindən, xalqlar həbsxanasına çevrilən sovet imperiyasının dağılmasından, qanla-qada ilə qazanılan parlaq qələbələrimizdən geniş və ətraflı bəhs olundu.

Elmi seminarın sonunda mövzular ətrafında müzakirələr aparıldı və suallar cavablandırıldı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



# Ən gözəl parad

***Bu ilin payızı bənzərsizdir. 5 il əvvəlin payızının ruhunu yaşatdığı üçün, "əllərdə, könüllərdə və dillərdə qərar tutan bayrağımız" payızın həzin-həzin əsən yelində incəliklə dalğalanır. Bu dalğalanma ruhun dünyaya salamıdır, bu dalğalanmada Azərbaycan Ordusunun qüdrətinin mətinliyi var. Azadlıq meydanına axışanlar bu mətinliyin doğmalığından keçib müqəddəsliyin tarixi görüntülərinin cazibəsinə düşəcək. Bu görüntülər 5 il əvvəlin döyüşlərində qazanılmış Zəfəri tarixləşdirənlərin, onların Zəfərinin ruh qardaşlarının mətin yerişləriylə tamamlanacaq...***



Xəzər də dalğalanır, bayrağımız da. Bu qoşa dalğalanmada azərbaycançılıq ruhu görənlər qürurla deyirlər ki, "Mən azərbaycanlıyam!"...

2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında 3000 nəfərdən çox şəxsi heyət, 150-dək hərbi texnika, silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri iştirak etmişdi. Ötən əsrin 90-cı illərində erməniliyin ilk mitinqinin niyyəti 2023-cü il noyabrın 8-də Xankəndidə keçirilən hərbi paradın iştirakçılarının ayaqları altında qaldı. 1919-cu il iyulun 29-da Xankəndidə Azərbaycan Demokratik Respublikasının qoşunlarının hərbi paradı keçirilib. Yadıma bir el deyimi düşür: "Dərin qazma, özün düşərsən..."...

İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tarixi Zəfər qazandı. Bu Zəfər işğalın sonu oldu. 30 ilə yaxın işğalda qalan ərazilərimizdə qələbə bayraqları dalğalandı. Dünya bir daha inandı və əmin oldu ki, Azərbaycan Ordusu güclü ordudur.




Mahiyyəti baxımından böyük qələbələr həmişə böyük miqyasda qeyd olunur. Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər böyük Zəfərdir. Havadarlarının siyasi və hərbi köməyinə ümidlənən Ermənistan 2020-ci ilin sentyabrına kimi yeni əraziləri işğal etmək üçün bütün siyasi və hərbi üsullardan, vasitələrdən istifadə edirdi. Ona görə dünya ictimaiyyəti Azərbaycan Ordusunun zəfərinə tarixi Zəfər dedi. Tarixi Zəfərdən az sonra - dekabrın 10-da Bakının Azadlıq meydanında hərbi parad keçirildi. "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə dedi. Zəfər tarixi Zəfər idi, parad tarixi parad idi, qürur tarixi qürur oldu!

İkinci Qarabağ müharibəsində Türkiyə Azərbaycanın haqq işini nəinki dəstəklədi, həm də mənən onun yanında oldu. Türkiyə müharibənin ilk günlərindən Azərbaycana kömək göstərdi. 10 dekabr paradında iştirak edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qardaşlıq manifesti hesab edilən çıxışında dedi: "Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır"...

2023-cü il noyabrın 8-də Xankəndidə keçirilən hərbi paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdi: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır".

2020-ci il paradı tarixi Zəfərin, 2023-cü il paradı Azərbaycanın ərazi bütövlüyünün tam bərpasının paradı idi. Bu parad Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığına verilən zəmanətin paradı kimi tarixləşdi...

Tarixi Zəfərin 5 illiyinə həsr olunmuş hərbi paradda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin, Slovakiya Respublikasının Baş nazirinin müavininin və müdafiə nazirinin, Səudiyyə Ərəbistanının müdafiə nazirinin müavininin, Serbiyanın Baş Qərargah rəisinin, Qazaxıstanın, Qırğızıstanın müdafiə nazirlərinin, Özbəkistanın müdafiə nazirinin müavininin iştirakı bu paradın beynəlxalq mahiyyətli parad olduğunun təsdiqi, həm də Türkiyə-Azərbaycan-Pakistan dövlətlərinin qardaşlıq ittifaqının yeni formulu kimi tarixləşdi. Paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi fikir də - "Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür" bu qənaətin siyasi təsdiqidir...

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin çıxışları da bu parada, paradın timsalında Azərbaycan Ordusuna, Azərbaycan Ordusunun timsalında Azərbaycana rəğbətin, ehtiramın təsdiqi kimi dinlənilir. Payızdı, payız rüzgarı yoxdu, Zəfər ovqatı təbiəti də bu paradın yaşatdığı qürura kökləyib; meh də yoxdu, göy üzündə bulud da.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, "Zəfər" və "Rəşadət" ordenli general-polkovnik Kərim Vəliyevin komandanlıq etdiyi paradda Azərbaycan Ordusunun 5000-dən çox hərbi qulluqçusu, Türkiyə Silahlı Qüvvələrinin iki kolondan ibarət heyəti, Pakistan Ordusunun parad heyəti iştirak etdi. Bu da paradın beynəlxalq mahiyyəti amili hesab edilməlidir...

Türkiyənin və Pakistanın parad heyətlərinin ahəngdar yerişində sevgi var, qürur var, şükranlıq var - Zəfər günü Azərbaycanda olmağın şükranlığıdır, sevincidir, Zəfərin 5 illiyinə həsr edilmiş paradda iştirakın qürurudur; ruhun qardaşlaşması dünyanın heyrətinə dönəndə daha möhtəşəm olur...

Xüsusi Təyinatlı Qüvvələrin, Hərbi Hava Qüvvələrinin, İnsansız Sistem Qoşunlarının, Hərbi Dəniz Qüvvələrinin, Quru Qoşunlarının bayrağı altında ordu korpuslarının, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Kəşfiyyat Xidmətinin "Yarasa", Dövlət Təhlükəsizlik Xidmətinin "Qartal" xüsusi təyinatlılarından ibarət heyətlərinin, ... mətin yerişi, ahəngdarlığı, 5 il əvvəlin döyüşlərinin nəyə söykəndiyinin göstəricisi kimi izlənilir.

Paradda Azərbaycanın 50 aviasiya vasitəsi, 5 Türkiyə aviasiya vasitəsi, 39 ədəd xüsusi təyinatlı avtomobil texnikası və silah sistemi, 53 ədəd hava hücumundan müdafiə vasitəsi, 63 ədəd raket-artilleriya silahları bu günün gücünün bir hissəsi, sabahların gücünün başlanğıcı kimi təqdim edilir.

Üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarəolunan "SPIKE-ER", 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılmış "Sand-Cat-Stormer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş "VAŞAQ" xüsusi əməliyyat nəqliyyat vasitələri (Milli Müdafiə Sənayesinin istehsalıdır), "COBRA-II" zirehli tibbi təxliyə avtomobilləri, "SKIF" raket kompleksi, "BTR-82A" zirehli transportyorlar, "PDM-3" piyadaların döyüş maşınları, "T-72M1" və "T-90S" tankları, "S-125 TM", "BUK-MB", "BUK-MB2K", "İLDIRIM-8", "S-300 FAVORIT" və "TOR-2M" zenit-raket kompleksləri keçir.

Qürurun boyu parad boyu bərabərdir, paradın boyu - tarixi Zəfərin. Eyni ovqatı digər texnikaların keçidi də yaşadır...

Azadlıq meydanının üzərində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşunu izləyərkən, bir anlığa 5 il əvvəlin payızını xatırladım. Televiziyada bir süjet göstərilirdi: qırıcılarımızın səsini eşidincə, düşmənin iri qruplaşmasının şəxsi heyəti hara gəldi qaçırdı, hara gəldi sığınırdı. Çoxusu ölümündən can qurtara bilməmişdi. Görəsən, o əməliyyatda sağ qalan düşmən bu təyyarələri görəndə, məğlubiyyət ərəfəsində yaşadıqları o anları xatırlayırmı? - Xatırlayır, ağır zərbələr unudulmur...

"Akıncı" pilotsuz uçuş aparatının səmada dövrə vurması, çəkilişlər aparması dayandırılmış ovqatın davamıdır. Görürsən - qürurlanırsan, qürurlanırsan - Azərbaycanın sabahlarının bənzərsiz işığını görürsən. O işıq dövlətçilik işığıdır, Vətənin işığıdır...

"Orbiter-1KM" zərbə pilotsuz uçuş aparatları, "Orbiter-2", "Orbiter-3" və "Orbiter-4" kəşfiyyat pilotsuz uçuş aparatları, "Aerostar" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Bayraktar-TB2" silahlı kəşfiyyat pilotsuz uçuş aparatı, silahlanmaya yeni qəbul edilmiş "Hero-120", "SkyStriker" sərbəst uçan döyüş sursatları, "Orbiter-5" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Harop" zərbə pilotsuz uçuş aparatları da eyni ovqatla izlənilir.

Azərbaycan, Türkiyə və Pakistan respublikalarının Dövlət bayraqlarını daşıyan "Mi-17" döyüş-nəqliyyat helikopterləri üçlüyünün uçuşu - "nə bir könül doyur, nə göz əl çəkir". Aparıcı bildirir ki, helikopterlərin pilotları Vətən Müharibəsi qəhrəmanları - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə və polkovnik Rəşad Nadirovdur. Zəfərin qazanılmasında döyüş uçuşları Zəfəri yaxınlaşdıran pilotlarımızın paradda uçuşları da könülləri tellendirir...



"Mi-17" helikopteri pilot, "Qarabağ" ordenli general-mayor Zaur Rüstəmov Ümummilli Lider Heydər Əliyevin portretini göy üzünün göylüyündən keçirib tarixin ruhuna yazırdı...

Təkmilləşdirilmiş "Su-25-Laçın" hücum təyyarələri beşliyinin uçuşu da bir gərəkliliyin uçuşu oldu: Səmalar da doğmalığı sevir!

Bu Zəfər son on illərin ən tarixi günü oldu, bu parad ən məzmunlu, ən mahiyyətli, ən gərəkli informasiyalı, ən bəşəri parad kimi tarixləşdi. Bu möhtəşəm parad dünyaya bir daha çatdırdı ki, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Şəhidlər Cavid Mirzəyevin və Səbuhi Sadıqovun anım mərasimi keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid ailələri və qadınlarla iş sektorunun təşkilatçılığı ilə şəhidlər baş leytenant Cavid Azər oğlu Mirzəyevin və əsgər Səbuhi Rövşən oğlu Sadıqovun xatirəsinə həsr edilmiş anım tədbiri keçirildi. Tədbirdə hər iki şəhidin valideynləri, ailə üzvləri, Nərimanov rayon və Sumqayıt şəhəri icra hakimiyyətinin nümayəndələri, şəhid anaları, təhsil aldıqları orta məktəbin müəllim və şagirdləri, döyüşçü yoldaşları və qonaqlar iştirak etdilər.*





Şəhidlərin xatirəsinə həsr olunmuş tədbirdə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə qeyd olundu ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda erməni işğalçılarına qarşı gedən döyüşlərdə canlarından keçən şəhidlərin xatirəsi hər zaman qədirbilən xalqımız tərəfindən əziz tutulur, məzarları ziyarət olunur. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində şəhidlər Cavid Mirzəyevin və Səbuhi Sadıqovun anım mərasimi də bu ənənənin davamıdır. Hər iki şəhidin həyatı və keçdiyi döyüş yoluna həsr edilmiş qısametrajlı film nümayiş olundu.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid ailələri və qadınlarla iş sektorunun müdiri Zümrüd Səmədova tədbir iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamladı. Şəhid valideynlərinə, ailələrinə hər zaman dövlətimiz tərəfindən böyük diqqət və qayğı göstərildiyi qeyd olundu. Bu gün də daha iki şəhidimizin anım gününə toplaşdıqlarını bildirdi.

Şəhid anaları Arzu Mirzəyeva və Yeganə Sadıqova övladlarının xatirəsini hər zaman əziz tutan dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. İkinci Qarabağ müharibəsi zamanı onların övladları könüllü olaraq torpaqlarımızın azadlığı uğrunda gedən haqq savaşına yollanıblar. “30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqları azad etməyə getdilər. Onlar da döyüşə getməsinlər, bəs kimlər gedib döyüşəcək? - dedilər. Bəziləri şəhid oldular”.

Ataları Azər Mirzəyev və Rövşən Sadıqov da şəhid övladlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq etdilər. Şəhid oğulları haqqında danışmağın onlar üçün ağır olduğunu bildirdilər.

Baş leytenant Cavid Mirzəyevin həyat yoldaşı Səbinə xanım qeyd etdi ki, Cavidlə birgə ailə həyatı quranda həyat yolunu sona qədər birgə davam edəcəyinə razılaşmışdı. “Yolumuz yarıda qaldı. Cavid Vətən naminə canından keçdi. İndi mən onun üzünü görmədiyi oğlu Cavidanpaşa ilə təkəm. Onu tək böyüdürəm. Şəhidlik zirvəsinə ucalan Cavidin adını həmişə uca tutacam, onun adına layiqli oğul böyüdəcəyəm”.

Nərimanov rayonu 73 saylı tam orta məktəbin müəllimi Mirəli Babayev qeyd etdi ki, Qarabağ müharibəsində xalqımızın igid oğulları misilsiz qəhrəmanlıqlar göstəriblər. Onların göstərdikləri qəhrəmanlıqları vaxtilə filmlərdə görüb. Şagirdi olmuş şəhid Səbuhi Sadıqov da güclü, pəhləvan cüssəli oğullardan biri olub. Səbuhinin keçdiyi döyüş yolu haqda silahdaşlarından eşidib. Biz istəməzdik müharibə olsun, ancaq bizi bu savaşa düşmən özü məcbur elədi. Ali Baş Komandan başda olmaqla, Azərbaycan Ordusu qısa zamanda cəbhədə uğurlu hərbi əməliyyatlar keçirdi. Məhz bunun nəticəsi idi ki, savaş 44 gün çəkdi. Düşmən ordusu darmadağın edildi. Və son anda onun təslim olmaqdan başqa yolu qalmadı.

Bakı Slavyan Universitetinin Həmkarlar Təşkilatının sədri Əli İsmayılov qeyd etdi ki, şəhid baş leytenant Cavid Mirzəyevi şəxsən tanıyıb. Onunla dəfələrlə ünsiyyətdə olub. Cavidlə söhbətdən heç vaxt yorulmayıb. Olduqca vətənpərvər, ailəcanlı bir oğul idi.

Tədbirdə çıxış edənlər şəhidlər haqqında xatirələrini bölüşdülər. Onların həyat və döyüş yolundan danışdılar. Şəhidlərin, döyüşlərdə yaralananların sayəsində bu gün Vətən torpaqları düşmənin işğalından azad edilib, bütövləşib, ərazi bütövlüyümüz bərpa olunub.

Tədbirdə 73 saylı tam orta məktəbin şagirdləri vətənpərvərlik mövzusunda şeirlər söylədilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri həzin mahnılar ifa etdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



# Şəhid Elgün İsmayılovun xatirəsinə həsr edilən növbəti yaradıcılıq müsabiqəsinə yekun vurulub

Bu gün uzun illər düşmən əsarətində olan torpaqlarımız işğaldan azad olunubsa, suverenliyimiz tamdırsa, Azərbaycanın hər guşəsində bayrağımız dalğalanırsa, bu, həyatını, canını, qanını Vətəninə fəda edən igidlərimiz sayəsindədir. Qəhrəman şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə yaşatmalı, xatirələrini əbədiləşdirərək gələcək nəsillərə çatdırmalıyıq.

Bu qəhrəmanlardan biri də şəhidliyinin 31 ili tamam olan, torpaqlarımızın azadlığı uğrunda əbədiyyətə qovuşan "Azərbaycan" qəzetinin əməkdaşı Elgün Dağbəyi oğlu İsmayılovdur. Cəmi 20 yaşında əbədiyyətə qovuşan Elgün İsmayılovun xatirəsi artıq 23 ildir çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında böyük ehtiramla yad edilir, xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsi təşkil olunur.

Redaksiyadan AZƏRTAC-a bildirilib ki, hər il olduğu kimi, bu il də şəhidin doğum günündə redaksiya kollektivi İkinci Şəhidlər xiyabanına gedərək onun məzarını ziyarət edib, məzarı üzərinə çiçəklər düzərək ruhuna dualar oxuyublar.

Redaksiyada davam edən anım mərasimi Vətən uğrunda canından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbiri "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov açaraq bildirib ki, redaksiya əməkdaşı Elgün İsmayılovun xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsinə həvəslə qoşulurlar: "Bu gün Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər Birinci Qarabağ savaşında canından keçən şəhidlərimizin əziz xatirəsinin gənclər üçün əsl qəhrəmanlıq məktəbi olduğunu sübut edir".

Baş redaktor vurğulayıb ki, 5 il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u ilə xalqın qisası alındı və heç bir şəhidin qanı yerdə qalmadı: "Dövlət başçısının müharibəyə qədər apardığı çətin, qətiyyətli və diplomatik bacarıq tələb edən siyasəti, eləcə də müharibənin hərb, diplomatiya və informasiya cəbhələrində qazanılan qələbə bizi qalib dövlətə çevirdi. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi hərbi-siyasi qələbə sayəsində xalqımızın milli qüruru özünə qayıtdı. Bu gün biz artıq qalib dövlətik, qalib xalqıq. Öz torpağına sahib çıxmağı, şəhidinin qisasını almağı bacaran qüdrətli dövlətik. Ərazimizdə bir nəfər də olsun separatçı, terrorçu yoxdur. Qalib xalqın nümayəndələri kimi Elgünün xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsini də artıq beş ildir ki, Zəfər ovqatı ilə qeyd edirik. 30 il təqvimlərimizdə yer alan qara günlərin yerini indi bayram günləri əvəzləyib. Bu qalibiyyət xoşbəxtliyini bizə ürəklərində Vətən sevgisi daşıyan, gözlərini qırpmadan düşmənə sinə gərib ölümün üzərinə gedən qəhrəman oğullarımız bəxş ediblər".

Sonra müsabiqənin nəticələri elan edilib.

Redaksiyanın əməkdaşları Vahid Məhərrəmov, Züleyxa Əliyeva və Ülkər Xaspoladova vətənpərvərlik mövzusunda məqalələrinə görə qalib elan olunublar.



Qeyd edək ki, 1974-cü il noyabrın 16-da Bakıda dünyaya göz açan Elgün İsmayılov 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılıb və həmin ilin oktyabrında "N" hərbi hissəsinin tərkibində Füzuli rayonuna göndərilib. Bir il sonra - 1994-cü ilin yanvarında briqadanın yeri dəyişdirilərək Kəlbəcər bölgəsinə - Murovdağ istiqamətinə göndərilib. Burada bölüyün keçirdiyi 20 əməliyyatdan 16-da iştirak edib. Elgün İsmayılov həmin il mayın 25-dən 26-na keçən gecə Murovun Ömər yüksəkliyində düşmən arxasına keçərək vacib məlumatların gətirilməsi üçün yola çıxan 4 nəfərlik kəşfiyyat dəstəsində yer alıb. Bu tapşırıq zamanı düşmən hücumuna məruz qalan və son nəfəsinədək döyüşərək şəhidlik zirvəsinə ucalan Elgün İsmayılov Bakıda torpağa tapşırılıb.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Azərbaycan Respublikasının Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında.**

**2. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.**

### Azərbaycan Respublikasının Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin əsas qanunu Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu ilin 18 martında və 2016-cı ilin 26 sentyabrında keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasında hakimiyyətin mənbəyi haqqında:

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

Sərbəst və müstəqil qaydada öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Siyasi əsaslar:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

**Mövzu:** Azərbaycan Respublikasının Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**İqtisadi əsaslar:**

Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır. Dövlət mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Milli Bank dövlətin müstəsna mülkiyyətidir.

### Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Azərbaycan Ordusunun yaradılması zəruri oldu. Bu, həm də ölkəmizin erməni təcavüzünə qarşı mübarizə aparması üçün lazım idi. Bir sözlə, Azərbaycan Ordusunun formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi. Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının əsas qanunu - Konstitusiyasında da Silahlı Qüvvələr və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaratdığı, Silahlı Qüvvələrin isə Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət olması, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir.

76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır.

Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəl qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr etdi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və Azərbaycan Ordusunun daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir.

Bu gün Azərbaycan Ordusu müasir texnika, silah və sursatla təchiz olunmuş, zabit kadrları ilə komplektləşmiş, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Qoşun, birlik və birləşmələrdə şəxsi heyətin nizam-intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar şəxsi heyətin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Hərbi İnstitutda müasir standartlara cavab verən tədris bazası mövcuddur. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizirlərin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı Fərmana əsasən yaradılmış Silahlı Qüvvələrin Hərbi Akademiyası hazırda Hərbi İdarəetmə İnstitutu kimi öz fəaliyyətini uğurla davam etdirir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar, şəxsi heyət arasında azərbaycançılıq, hərbi vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, peşəkar zabit korpusunun formalaşdırılması, ordumuzun ən müasir hərbi texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasəti Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə böyük qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel zəfəri, 2018-ci ildə Günnüt qalibiyyəti, 2020-ci ilin sentyabrında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı Vətən müharibəsi və eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19-20 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda 23 saat davam edən antiterror tədbirləri beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanıcanı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu.

Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır və Azərbaycan Ordusunun daha güclü olmasına öz töhfəsini verir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

***Qeyd:*** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Azərbaycan Respublikası Konstitusiyasının tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Görkəmli şəxsiyyətlər

# Parlaq qəhrəmanlıq nümunəsi - general-mayor Əmənulla Mirzə Qovanlı-Qacar

Qacarlar sülaləsindən olan şahzadə Əmənulla Mirzə Bəhmən Mirzə oğlu Qovanlı-Qacar 8 yanvar 1857-ci ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini Şuşada, dövrünün ən tanınmış müəllimlərindən alıb. O, Sankt-Peterburqdakı Hərbi Kadet Korpusunu bitirib. 19 iyul 1879-cu ildə 164-cü Zaqatala Piyada Alayında "praporşik" rütbəsi (Çar ordusunda ilkin zabit hərbi rütbəsi) ilə hərbi xidmətə başlayıb, 15 may 1883-cü ildə "podporuçik" rütbəsi alıb. 20 noyabr 1886-cı ildə Kuban kazak qoşunlarının 2-ci Plastun Piyada Batalyonuna köçürülüb və "xorunji" rütbəsi (Şərqi Avropa ordusunda və 1722-ci ildən çar ordusunun kazak dəstələrində mövcud olan rütbə) alıb. 8 oktyabr 1887-ci ildə "yüzbaşı" rütbəsinə yüksəlib. Nümunəvi xidmətinə görə o, 16 sentyabr 1891-ci ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib. 6 may 1895-ci ildə "podyasavul", 6 may 1902-ci ildə isə hərbi xidmətdə fərqləndiyinə görə "yasavul" rütbəsinə yüksəlib.

1904-1905-ci illər Rus-Yapon müharibəsində iştirak edib. 22 sentyabr 1906-cı ildə 25 illik qüsursuz xidmətinə görə 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni ilə təltif edilib. 28 yanvar 1907-ci ildə Əlahəzrət İmperatorun əmri ilə döyüşlərdə fərqləndiyinə görə üzərində "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə mükafatlandırılıb. 16 aprel 1909-cu ildən "hərbi starşina" və 9-cu Kuban Plastun batalyonunun komandiri təyin olunub.

Əmənulla Mirzə Qovanlı-Qacar Birinci Dünya müharibəsinə Qafqaz cəbhəsində general-mayor V.E.Quliqinin komandanlığı altında 9-cu Kuban Plastun batalyonunun komandiri kimi döyüşlərə başlayıb. Sarıqamış döyüşündən sonra 1-ci və 2-ci Kuban Plastun Briqadaları general-leytenant N.M.İstominin komandanlığı altında yeni yaradılan 5-ci Qafqaz Ordusu Korpusunun tərkibinə verilib. 25 aprel 1915-ci ildə xidmətdə fərqləndiyinə görə "polkovnik" rütbəsinə yüksəlib və 3-cü Kuban Plastun batalyonunun komandiri təyin edilib.

Birinci Dünya müharibəsi zamanı Əmənulla Mirzə Avstriya-Macarıstan qoşunlarına qarşı döyüşlərə göndərilib. O, komandirlik etdiyi batalyonu ilə birlikdə Avstriya-Macarıstan ordusu ilə 1915-ci il avqustun 25-də Markhonovka kəndi yaxınlığında baş verən döyüşdə sayca üstün olan düşmənin güclü tüfəng və artilleriya atəşi altında onların mövqeyinə doğru irəliləyərək düşmən ordusunun atəş nöqtə-



lərinə ağır zərbələr vurub. Öndən və cinahlardan süngülərlə qətiyyətli hücumu ilə düşməni səngərlərdən qovaraq çox vacib mövqeləri ələ keçirib, çoxlu sayda düşməni əsir götürüb və həmin mövqelərdə möhkəmlənib.

Bu döyüşlər zamanı ayağından ağır yaralandığına görə müalicə almaq üçün arxa cəbhəyə göndərilib. Yaraları sağaldıqdan sonra - 1916-cı ildə yenidən cəbhəyə qayıdıb. Birinci Dünya müharibəsində göstərdiyi misilsiz şücaətlərə və parlaq hərbi qəhrəmanlığa görə polkovnik Əmənulla Mirzə Qovanlı-Qacar 1917-ci ildə "general-mayor" rütbəsinə layiq görülüb.

Hərbi xidmətdə və düşmənə qarşı döyüşlərdə xüsusilə fərqləndiyinə görə Əmənulla Mirzə 12 sentyabr 1915-ci ildə 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni (yayla birgə) ilə, 31 dekabr 1915-ci ildə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni (qılıncla birgə) ilə, 4 aprel 1916-cı ildə 3-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni (qılıncla birgə) ilə, 5 noyabr 1916-cı ildə "Georgi silahı" ilə təltif edilib.

1917-ci ilin Fevral inqilabından sonra Vətəninə geri dönüb, bir müddət Tiflisdə, sonra isə Şuşa şəhərində yaşayıb. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması elan edildikdən sonra Şuşada yaşayan Əmənulla Mirzə 1 dekabr 1918-ci ildə yeni yaradılan dövlətin Hərb Nazirliyinə müraciət edərək ordu sıralarına qəbul edilməsini istəyib və onun bu istəyi reallaşıb.

Əmənulla Mirzə Milli Ordu sıralarında xidmətlə yanaşı, diplomatik məsələlərdə də iştirak edib. Beləki, o, 1919-cu ilin martında Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə Diplomatik Missiyasının tərkibində İsmayıl xan Ziyadxanovun rəhbərliyi ilə Qacar dövlətinə (Tehrana) göndərilən rəsmi nümayəndələrin arasında idi. O, bu diplomatik nümayəndə heyətində hərbi qrupun rəhbəri olub.

Azərbaycana geri döndükdən sonra o, Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusunun 1-ci Piyada Diviziyasının (bu diviziyanın qərargahı Xankəndi və Şuşada yerləşib) komandirinin müavini, həmçinin Xankəndi və Şuşa qarnizonunun komandiri təyin edilib. O, 22-23 mart tarixlərində erməni silahlı dəstələrinin Azərbaycan Ordusuna qarşı təşkil etdiyi hücuma qarşı vuruşub və erməni üsyanının yatırılmasında fədakarlıq göstərib.

1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndə bolşevik təzyiqinə dözməyən və bolşevik təhlükəsini əvvəlcədən hiss edən Əmənulla Mirzə 1929-cu ildə İrana mühacirət edib. Tehranda yaşayan general-mayor Əmənulla Mirzə Qacar hərbi məktəbdə müəllim işləyib, İran nizami ordusunun yaradılmasında yaxından iştirak edib. Bundan başqa, siyasi fəaliyyətlə də məşğul olan Əmənulla Mirzə İran Milli Məclisinin (Parlamentinin) üzvü və İran-Sovet Dostluq Cəmiyyətinin rəhbəri olub.

General-mayor Əmənulla Mirzə Qovanlı-Qacar 1937-ci ildə Tehranda vəfat edib. Atası Bəhmən Mirzə cənubi Azərbaycanın hakimi olmuş Abbas Mirzənin oğlu, anası isə Çiçək xanım idi. Əmənulla Mirzə Hacı Hüseynəli bəyin qızı Nəvvab bəyim ilə ailəli olub. Onların Səyavuş Mirzə və Xosrov Mirzə adlı oğulları, Səfiyyə xanım adlı qızı olub.

**"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar



### Tramp Səudiyyə Ərəbistanına F-35 qırıcı təyyarələri satacağını təsdiqləyib

ABŞ Prezidenti Donald Tramp vəliəhd şahzadə Məhəmməd bin Salmanın Vaşinqtona səfəri ərəfəsində Səudiyyə Ərəbistanına F-35 qabaqcıl qırıcı təyyarələri satacağını bildirib. O, krallığın ABŞ ilə uzunmüddətli tərəfdaşlığını yüksək qiymətləndirib.

Qeyd edək ki, Məhəmməd bin Salman Ağ Evə səfər edəcək.

### Səudiyyə Ərəbistanının Mədinə şəhərində qəza nəticəsində 45 zəvvar ölüb



Səudiyyə Ərəbistanının Mədinə şəhəri yaxınlığında zəvvarları daşıyan avtobusun yanacaq maşını ilə toqquşması nəticəsində 45 nəfər ölüb.

Ölən şəxslər Hindistan vətəndaşları olublar. Onlar Ümrə ziyarətinə gəlmişdilər.



### BMT TŞ Qəzzada beynəlxalq qüvvələrin yerləşdirilməsi ilə bağlı layihəni qəbul edib

BMT Təhlükəsizlik Şurası Qəzzada Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi ilə bağlı ABŞ-ın qətnaməsini qəbul edib. Təhlükəsizlik Şurası qətnamənin lehinə səs verib.

Səsvermənin nəticələrinə əsasən 13 lehinə və iki bitərəf səs verib. Qətnamənin əleyhinə səsverən olmayıb.

### Konqoda mədənin çökməsi nəticəsində ölənlərin sayı 100-ü keçib



Konqo Demokratik Respublikasının cənubunda qiymətli metal mədənində çökmə nəticəsində 100-dən çox insan ölüb.

Lualaba regionunda yerləşən mədənin yaxınlığında su xəndəyinin üzərindəki körpü çöküb.

Qalın torpaq qatının altında qalmış insanların axtarışları davam edir. Qurbanların sayının artacağı gözlənilir.

Konqoda Kolovizi regionunda Qaçqınlarla iş Forumunun sədri Bekos Kilihoşi bildirib ki, dağıntı altından çıxarılanların əksəriyyəti daxili köçkünlərdir.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman



### Azərbaycan atleti İslamiadada 3-cü yeri tutub

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda təşkil olunan VI İslam Həmrəyliyi Oyunlarında atletika yarışlarına start verilib.

Azərbaycan milli komandasının üzvlərindən ilk olaraq Yekaterina Sariyeva mübarizəyə qoşulub. Üç təkanla tullanma növündə mübarizə aparan atletimiz uğurlu çıxışla yadda qalıb. Sariyevanın ən yaxşı göstəricisi 13,84 metr olub. Bu nəticə ilə o, mötəbər yarışda bürünc medala sahib çıxıb.

Qeyd edək ki, bu, idmançımızın İslam Həmrəyliyi Oyunlarında 4-cü medalıdır. Y.Sariyeva 2013-cü ildə Palembanqda qızıl, 2021-ci ildə Konyada gümüş, 2017-ci ildə Bakıda bürünc medal qazanmışdı.

### Azərbaycan VI İslam Həmrəyliyi Oyunlarında növbəti medalı qazanıb



Azərbaycan qılıncoynadanı Vahab Fətullayev Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb.

Yarımfinalda uduzan idmançı fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Qeyd edək ki, İslamiadaya noyabrın 21-də yekun vurulacaq.



### İsraildə 17 yaşlı futbolçu 99 il müddətinə diskvalifikasiya edilib

İsrail Futbol Assosiasiyasının (IFA) İntizam Məhkəməsi "Yermiahu Holon" klubunun gənclər komandasının futbolçusunu 99 il müddətinə diskvalifikasiya edib.

Buna adı açıqlanmayan oyunçunun matçdan sonra rəqib komandanın üzvünə hücum çəkməsi səbəb olub. 17 yaşlı oyunçu paltardəyişmə otağının yaxınlığında rəqibini döyməyə başlayıb. Görüntülər yerli telekanallardan biri tərəfindən yayımlanıb.

İnsidentə görə klub cərimələnib, bir il sınaq müddəti verilməklə komandanın şərti olaraq 3 xalı silinib.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan İsmayılov Röyal Fəqani oğluna verilmiş MN № 0054619 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefonlar | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Bəxtiyar ƏLİYEV | Lisenziya № 361 Sifariş № 643 Nüsxə 3665 |